# Bu sınaqdan üzüağ çıxdıq

***Müsahibimiz Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anardır***





***– Anar müəllim, Ermənistanla ağır müharibə başa çatdı. Daha doğrusu, düşmən sülhə məcbur edildi. Bundan savayı, torpaqlarımız azad edilir, ərazi bütövlüyümüz bərpa olunur. Qürurverici günlər yaşayırıq. Ziyalı sözünə həmişəkindən də artıq ehtiyac var. Qələbəmizi necə dəyərləndirirsiniz?***

– Bu müharibə 44 gün davam etdi. Bu, millətimiz, dövlətimiz üçün böyük bir sınaq idi. Bu sınaqdan üzüağ çıxdıq. Deməli, bizim Prezident, Rusiyanın dövlət başçısı və Ermənistanın başabəla baş naziri razılığa gəldilər ki, atəşkəs olsun və Ağdam, Kəlbəcər və Laçın azad edilsin. Biz düşmənimizi sülhə məcbur etdik. Bu, çox böyük uğurdur. Prezidentimizin, xalqımızın, Ordumuzun uğurudur. Tariximizin önəmli səhifəsidir.

Biz də bu günlər ərzində durumla bağlı müsahibələrlə, yazılarla çıxış etdik. Yazıçılar Birliyi kimi bəyanat da verdik. Yazıçılarımız ilk gündən bu işə qoşulublar. Çünki bu, bizim ümumi amalımızdır. Biz 30 ildir ki, bu günün həsrətilə yaşayırdıq. Bir addım da irəliləyiş yox idi və səbr edirdik. Torpaqlarımız düşmən tapdağında idi və müzakirələrin effekti yox idi. Lakin zaman göstərdi ki, Ali Baş Komandan bilirdi nəyi nə zaman etmək lazım idi və həmin vaxt da bu günlərdir. İllərdir Ermənistan rəhbərliyinin bu münaqişəni, hər nə yolla olursa-olsun, uzatmaq cəhdləri, təbii ki, bir nəticə verməyəcəkdi. Onlar vəziyyətin status-kvo çərçivəsində qalmasında maraqlı idilər. Sülh üçün heç bir addım belə atmırdılar. Lakin Prezidentin bildirdiyi kimi, status-kvo artıq yoxdur, təmas xətti yoxdur. Biz 5 rayonu, 300-ə yaxın yaşayış məntəqəsini artıq tam azad etdik. Digər rayonlar da plan üzrə azad ediləcək.

***– Ali Baş Komandan hərb meydanında olduğu kimi, informasiya cəbhəsində də mübariz sərkərdə kimi çıxış etdi. Necə düşünürsünüz, dövlət başçısı erməni lobbisinin informasiya mühasirəsini yara bildimi?***

– Şübhəsiz! Ordumuz Ali Baş Komandanın ortaya qoyduğu güclü siyasi iradə, yüksək təşkilatçılıq qabiliyyətinə və qətiyyətə əsaslanaraq, müharibədə böyük uğurlar qazandı. Rəşadətli ordumuz döyüşdü və düşmən qüvvələrini məhv etdi. Lakin informasiya müharibəsində isə, doğrusu, bu gün İlham Əliyev təkbaşına mübarizə aparır. Yəni, onun qədər heç kimin beynəlxalq xəbər agentliklərinə, dünya ictimaiyyətinin nəzər diqqətini cəlb edən proqramlara çıxmaq imkanları yoxdur. Dövlət başçısı bu imkanlardan öz xalqının həqiqətini sonadək çatdırmaq üçün məharətlə istifadə edərək, əlindən gələn fədakarlığı əsirgəmir. Bir neçə dildə sərbəst, səlis və rəvan danışaraq, Qarabağ probleminin tarixinə və beynəlxalq hüquqa əsaslanaraq, ən yüksək səviyyədə şərh edir, təhlillər, əsaslı arqumentlər gətirir. Deyərdim ki, dövlət başçısı təkbaşına çox effektiv iş ortaya qoyur. İllərdir erməni lobbisinin təsiri ilə dünya informasiya məkanı bizə əks mövqedə olub. Bir ay ərzində Prezidentin bu vacib çıxışları və müsahibələri sayəsində biz ermənilərin dünya ictimai fikrini aldatmaq cəhdlərinin qarşısını xeyli almış olduq.

***– Yazıçıların içində müəyyən ədəbi cərəyanlara, xüsusilə, post-modernizm cərəyanına mənsub olanlar arasında vətənpərvərlik barədə fərqli yanaşmalar müşahidə edilir. Onların bəziləri hesab edirlər ki, vətənpərvər olmaq artıq işdir, gərək deyil. Ümumiyyətlə, sərhədlər olmamalıdır, insan, əsasən də yazıçı daha çox kosmopolit düşüncəyə sahib olmalıdır. Yazıçı olaraq necə düşünürsünüz: bu yanaşma doğrudurmu?***

– Bilirsiniz, elə insanlar var ki, onlara cavab verməyə dəyməz. O ki qaldı, vətənpərvərliyə, böyük ədiblərimizdən Abbas Səhhət bu hissin tərifini o qədər yüksək verib ki, məncə, vətənpərvərliyi ən gözəl şəkildə tərənnüm edib: **Vətəni sevməyən insan olmaz, olsa da, o şəxsdə vicdan olmaz.** Yəni, vicdansız insanla nə danışmaq olar? Belə insana gərək deyəsən ki, birinci vicdanın olsun, sonra Vətənin. Vətən hissi ana hissi qədər doğma, əzizdir. Ümumbəşəri dəyərlər heç bir vaxt Vətəni sevməklə qarşı-qarşıya qoyula bilməz. Bunlar qətiyyən bir-birinə mane olmayan anlayışlardır. Bəşəriyyəti sev, xidmət elə, bunlar hamısı öz yerində. Bəşəriyyətin bir hissəsi də sənin xalqındır. Onların toplandığı yer də sənin diyarındır. Bizim üçün də bu, Azərbaycandır və onu sevmək vacibdir.

***– Bir müsahibənizdə yaradıcılığa ilk gəlişinizin Şuşadan başladığını qeyd etmisiniz . Bir pyes yazıb atanıza göstərmisiniz . O isə oxuduqdan sonra deyib ki, heyif, sən də yazıçı oldun! Sizcə, o, belə deməklə artıq sizin yazıçı olduğunuza işarə edirdi, yoxsa bu yolun çətin, məşəqqətli olacağına?***

– Məşəqqətli yol olduğuna işarə edirdi. Mən bu pyesi atama və anama oxudum. Üzündə həm təəssüf var idi, həm heyrət, həm sevinc, həm də ümid. Ona görə dedi ki, heyif, sən də yazıçı oldun. Çünki onun özü yazıçı taleyinin necə çətin bir yol olduğunu bilirdi. Özünün ədəbi taleyi də çox çətin, ziddiyyətli olub. Çox çətin müqavimətlərə rast gəlib. Ona görə fikirləşib ki, mən də müqavimətlərə rast gələcəm. Dedikləri düz çıxdı və mən də çox müqavimətlərə rast gəldim. Çox mübarizə aparmalı oldum. Oxucuların mənim həqiqət sandığım nüansları bilməsi üçün çox əziyyətlərdən keçməli oldum.

***– Siz dövlətimizin ən yüksək mükafatlarına, ordenlərinə layiq görülmüsünüz. Xarici ölkələrdə də sizə nüfuzlu mükafatlar təqdim edilib. Ümumiyyətlə, yazıçı Anar üçün mükafat nə qədər önəmli və əhəmiyyətlidir?***

– Bilirsiniz, desəm ki, heç bir əhəmiyyət daşımır, bu, riyakarlıq olar. Amma mən heç vaxt mükafat hərisi olmamışam. Əksinə, mən həmişə deyərdim ki, bu fəxri adlar gərəkli deyil. Mükafat və ordenlər bütün ölkələrdə var, lakin bu fəxri adlar sovet ölkələrində mövcuddur. Amma ondan sonra mənim özümə də "Xalq yazıçısı" adı verdilər. Daha bu barədə danışa bilmədim. Çünki deyəcəkdilər ki, özü fəxri ada layiq görülüb, amma deyir ki, belə şey düzgün deyil. Doğrudur, mən MDB ölkələrinin də, Türkiyənin də mükafatlarını almışam. Lakin mənim üçün ən mühüm mükafat Heydər Əliyev mükafatı olub. Çünki, mən o şəxsiyyəti həmişə yüksək qiymətləndirmişəm, ona həmişə böyük hörmətim olub. Onun da mənə hörmətini hər zaman hiss etmişəm. Ona görə də bu dahi şəxsiyyətin adını daşıyan mükafat mənim üçün böyük əhəmiyyət daşıyır.

***– Sizin əsərlərinizdə, xüsusən də ssenarilərinizdə milli kolorit, mental və eyni zamanda, real həqiqətlər üstünlük təşkil edir. Buna görə sovet dövründə təzyiqlərlə üzləşmisinizmi?***

– Mən sevmirəm deyim ki, sovet dövründə məni belə sıxışdırıblar və s. Çünki indi o hökumət yoxdur və bir çoxu çalışır ki, özünü qəhrəmanlaşdırsın. Mən sovet dövründə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşəm, dövlət mükafatı almışam. Amma mənim bütün əsərlərim ilk dövrdə tənqidlə qarşılanıb. Birinci hekayəm çıxan kimi tənqid etdilər, birinci povestim də tənqidə tuş gəldi. Qobustan toplusunun redaktoru idim, çap olunan kimi, üstümə düşdülər. Mənim əsərlərim senzuradan çox çətinliklə keçirdi. Filmlərim həm Azərbaycanda, həm Moskvada müqavimətlə qarşılanırdı. Ona görə də deyə bilərəm ki, heç biri asanlıqla alınmayıb. Müstəqillik dövründən sonra da mənə çox hücumlar oldu. Doğrudur, onlara çox fikir vermirəm. Amma sonda insanıq axı... Gördüyümüz işin müqabilində cahil hücumlarla rastlaşanda istər-istəməz təsir edir. Amma mən belə hesab edirəm ki, mənim həyatda bir missiyam var və mən o missiyanı yerinə yetirirəm və yetirəcəm.

***– Belə başa düşdüm ki, sizə təsir edən, əsasən, ədalətsiz hücumlardır...***

– Mənə təsir edən ədalətsizlik və nankorluqdur. Bilirsiniz, elə adamlar var ki, mən onlara heç bir yaxşılıq etməmişəm, amma onlardan da mənə pislik dəyməyib. Amma çox yaxşılıq etdiyin insan birdən dönük çıxıb sənə nankorluq edirsə, əlbəttə, bu, təsirsiz ötüşmür.

***– Senzuradan söz düşmüşkən, ssenarilərinizin içində senzuradan keçməyənləri olub?***

–Hamısı keçib, amma çox çətinliklə... "Dədə Qorqud"un özü çox çətinliklə keçdi. Elə bizim bəzi alimlərimizdən də etiraz edənlər olmuşdu. Bir Qorqudşünas alim 25 səhifəlik məktub yazmışdı ki, bu ssenarini filmə çəkmək olmaz. Azərbaycanda Dədə Qorqudun ən böyük mütəxəssisi Həmid Araslıdır. Mən dedim ki, ssenarimi ona verin. Əgər, o, müsbət fikir bildirməsə, mən etiraz etməyəcəm. O, oxudu və çox müsbət rəy verdi ki, bu ssenariyə mütləq film çəkilməlidir. Moskvada da çox çətinliklə keçdi. Müstəqillikdən sonra Mirzə Fətəli haqqında ssenarimin əleyhinə bir tarixçi alim yazmışdı. Onun da lehinə başqa alimlər rəy bildirdilər. Yəni, mən bədxahlıqla bərabər, çox xeyirxah insanlarla da rastlaşmışam. Ona görə də həyatımda rol oynayan bu insanların mənə etdiyi yaxşılıqları heç zaman unutmuram və onları minnətdarlıqla yad edirəm.

***– Bəs tariximizlə, soy-kökümüzlə bağlı daha hansı ssenarilər yaza bilərdiniz ki, sovet təbliğat maşını buna mane oldu?***

– Çətinliklərə, senzura şərtlərinə baxmayaraq, mən qarşıma qoyduğum məqsədlərə nail ola bildim.

***– Yəni yazmaq fikrində olduğunuz hansısa tarixi şəxsiyyət, tarixi reallıq barədə əsərləriniz oldumu?***

– Soy-kökümüzü, ortaq ədəbiyyatımızı, türkçülük ideyalarını təkcə "Dədə Qorqud" filminin ssenarisində deyil, həm də "Dədə Qorqud dünyası" adlı böyük bir essemdə işıqlandırmağa çalışdım. Bundan əlavə, "Min beş yüz ilin oğuz şeiri" ikicildlik antologiyasını yazdım. Son zamanlarda yazdığım "Türkün sözü" adlı məqalədə Türkiyə–Azərbaycan xalqlarının ümumi köklərinə toxunuram. Mənim istədiyim odur ki, biz bir millət – iki dövlətik, qardaş xalqlarıq və ümumi köklərimiz birdir və bu təbliğ olunsun. Eyni zamanda, həm də diqqətə çatdırım ki, bizim orta əsrlər, ümumiyyətlə, XIX əsrə qədərki ədəbiyyatımız eyni ədəbiyyatdır. Füzuliyə Türkiyə türkləri necə sahib çıxırlarsa, bizim də Yunis İmrəyə sahib çıxmağa haqqımız var. Yunis İmrə onların da şairidir, bizim də. O cümlədən, İmadəddin Nəsimi. Mən demirəm ki, Namiq Kamal və ya Tofiq Fikrət bizimdir. Necə ki, Axundov, Mirzə Cəlil, Sabir bunlar bizimdir. Amma orta əsrlərdə XIX əsrə qədər bizim ədəbiyyat nümunələri eynidir. Bunları bir-birindən ayrı təhlil etmək doğru deyil. Məsələn, biz deyirik ki, bizim ədəbiyyatımızın doğma dildə ilk şeiri Həsənoğlunun qəzəlidir. Sual olunur, Yunis İmrə ondan öncə yaşayıb, axı o da bizim dildə yazıb, yaradıb. Nə fərqi var? Yox, əgər ərazi məsələsinə görə deyiriksə, biz Qazi Bürhanəddini Azərbaycan şairi kimi təqdim edirik, öyrənirik, halbuki o, Sivas-Qeysəriyyə (indiki Kayseri) hökmdarı olub və orada yaşayıb, yaradıb. Ərazi baxımından, Füzulinin özü də İraqda yaşayıb. Yəni, Yunis İmrə, Qaracaoğlan, Pir Sultan Abdal həm bizimdir, həm Türkiyənin. 1500 ilin oğuz şeiri antologiyasında bu məsələyə çox toxunmuşam və bunları isbat etməyə çalışmışam.

***– Böyük Sabirin də məşhur misraları var: Mümkün iki dil bir-birinə tərcümə, amma Osmanlıcadan türkə tərcümə nə deməkdir?..***

– Bəli, əlbəttə, bu fakt da var. Doğrusu, mən demək istəmirəm ki, dilimiz tam eynidir. Əlbəttə, fərqlər var. Azərbaycan dili, Türkiyə türkcəsi müstəqil dildir. Amma çox yaxındır, qardaş dillərdir. Qobustan jurnalını tənqid edənlər, əsasən, mənim türk sözlərindən istifadə etməyimə irad tuturdular. Məsələn, "toplu" sözü bizdə lüğətdə var. Niyə "məcmuə" kimi ərəb sözünü işlədək, niyə "almanax" kimi əcnəbi sözü işlədək? Halbuki, öz dilimizdə "toplu" sözü var və yerinə düşür. Biz "Qobustan"da bunu axıra qədər işlətdik. Xeyli söz gətirdik. "Danılmaz" sözünü indi hamı işlədir, ilk dəfə mən işlətmişəm. Önəmli sözü də var. Düzdür, bunu mən gətirməsəm də, hər halda bu sözü işlətmək yerinə düşür. "Ön söz"ü işlətmişik, "olay" sözü Türkiyədən gəldi, amma işlədirik. Məsələn, traktofka sözünü mən "yozum" kimi işlədirdim. Necə ki, yuxunu yozurlar, o cümlədən əsəri də, hekayəni də yozmaq olar. "öncül" sözünü gətirdik, "uğur" sözünü nailiyyət əvəzinə çox işlədirdik. Ümumiyyətlə, çox sözlər var ki, biz o zaman "Qobustan"da işlədirik və müqavimətlə rastlaşırdı, lakin indi adiləşib və işlənilir.

***– "Dədə Qorqud" filmindən danışmışkən, bir dəfə verdiyiniz müsahibənizdəki maraqlı nüansı xatırladım. Siz qeyd etdiniz ki, filmin əvvəlində göstərilən heykəllər Şamaxıdadır. Mən bu heykəllərə bir də Tuvada rast gəlmişəm. Bu, doğrudanmı belədir?***

– Bəli, doğrudur. Rusiya Federasiyasnın şərqində Tuva heykəlləri var, onlara "balbal" deyirlər. Ölən adamların qəbirlərinin üstünə heykəllər qoyurlar. Bizim Şamaxının Xınıslı kəndi var, oradakı qəbirlər ki, filmdə çəkilib, həmin balbal mədəniyyəti ilə, demək olar ki, eyni estetikadır.

***– Onda belə çıxır ki, bu, böyük Türk, Turan coğrafiyasının şərq və qərb mədəni sərhədlərini ifadə edir?***

– Bəli, oradan gəlib, məhz o köklərdən gəlib. Məsələn, bizim heykəltəraşlıq, əsasən, Avropa, rus heykəltəraşlığından gəlir. Mikelancelo, Donetello olsun. Roden olsun, hamısı Qərb heykəltəraşlıq məktəbinin əsasını qoyanlardır. Amma bizim öz klassik heykəltəraşlıq ənənələrimiz də olub. Bizim qəbir üstündəki qoç, at heykəlləri, lap elə balbal mədəniyyətinin özü, bütlər, Ağdam rayonunun Boyəhmədli kəndində tapılmış büt və s. bunların hamısı bizim milli klassikanın, heykəltəraşlıq ənənələrinin nümunələridir. İndi şəhərdə Dədə Qorqudun heykəlini qoyublar. Mən Dədə Qorqudun heykəlini başqa tərzdə görmək istəyirdim. Bir dağ başında –uzaqdan görünsün. Bakıya gələndə şəhərin girişində qoymaq olardı. Bu heykəlin yanında Qaraca Çoban, Beyrək, Qazan və dastanın digər personajlarının da heykəli olsa, tamlıq olardı. Belə bir kompozisiya şəklində qoyulsaydı, çox gözəl olardı. Məsələn, "Koroğlu" dastanı ilə bağlı tək Koroğlunun heykəlinin qoyulmasında məntiq var, lakin Dədə Qorqud böyük eposdur. Burada çoxlu personaj var və bu personajların hərəsi bir nününədir.

***– Siz hər iki tərəfdən Azərbaycan xalqının tanınmış nəsillərinin övladısınız. Sizcə, ədəbiyyatda bəy obrazını təbliğ etməyə, kifayət qədər böyütməyə ehtiyac varmı?***

– Bilirsiniz, sovet dövründə bəy obrazını çox alçaldıblar. İlk dəfə bəy obrazını iki yazıçımız müsbət obrazda təqdim edib. İlyas Əfəndiyev, bir də İsmayıl Şıxlı. İsmayıl Şıxlının Cahandar ağası, İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" əsərindəki bəy obrazı. Ondan əvvəlkilər və müasirləri yazanda bəyləri mütləq zalım, istismarçı kimi qələmə veriblər. Əlbəttə, bəylər də müxtəlif olub. Mən deyə bilmərəm ki, bütün bəylər ideal olub. Onların da içində müsbət və mənfi keyfiyyətlərə sahib olanlar olublar. Lakin fərdi şəkildə müsbət obraza layiq bəylərimizi canlandırmaq, işıqlandırmaq, ədəbiyyatda təbliğ etmək lazımdır. O bəylər ki, Azərbaycan tarixində böyük rolu olub. Bəy deyəndə, Üzeyir bəyi, Əhməd bəy Ağaoğlunu, Əbdürrəhim bəyi, Soltan bəyi, Xosrov bəyi və s. yada salmaq lazımdır.

***– Elə Dədə Qorqud dastanının özündə belə bir cümlə var: "Tanrı verməyincə ər bəy olmaz". Belə çıxır ki, bəylik də gendən, kökdən gəməlidir?***

– Bəli, yalançı aristokratiya ayrıdır, kökdən gələn, əməlləri ilə bunu sübut edən bəylik ayrı. Məsələn, ermənilərlə bizim əsas fərqlərimizdən biri də budur. Onların aristokratiyası yoxdur. Gürcülərin var, azərbaycanlıların var. Lakin ermənilərin yoxdur. Mən demirəm bu müsbət faktdır, ya mənfidir. Amma faktdır.

***– Ailəniz məşəqqətli günlər keçirib, ana və ata tərəfdən nəsliniz represiyalara məruz qalıb. Bütün bu olanlar sizin yaddaşınızda, təfəkkürünüzdə hansı izləri buraxıb?***

– Əlbəttə, repressiyalar bizə təsirsiz ötüşməyib. Ana tərəfim bəy, ata tərəfim xan nəslindən olduğu üçün ağır günlər keçiriblər. Mənim ana babam Ələkbər bəy Rəfibəyli Gəncənin ağsaqqalı olub. Azərbaycanın ilk siyasi partiyalarından "Difai"nin Gəncədə yaradıcısı və güclü dəstəkçilərindən biri olub. Babam Xudadat bəy də, həmçinin, Azərbaycanın ilk səhiyyə naziridir. Gəncənin qubernatoru olub və belə bir dinc və xeyirxah sənət sahibini 1920-ci ildə ermənilərin fətvası ilə Xəzərin bir adasında güllələyiblər. Yəni, anam 7 yaşından yetim qalıb. Amma anam heç vaxt bizi nifrət ruhunda böyütmədi. Təbii ki, biz böyüdükcə bunu dərk etdik ki, həm ata nəslim, həm də ana nəslim nə qədər məşəqqətlər çəkib. Rəfibəyliləri 9 dəfə sürgün ediblər. Ona görə də bu gün dünyanın bir sıra nöqtələrində Rəfibəylilərə rast gəlmək olar. Xaricdəki Rəfibəylilər Azərbaycandakılardan çoxdur. Türkiyədə də Rəfibəylilər çoxdur. Qırğızıstanda da Rəfibəylilər var. Mən ora gedəndə gördüm. Hamısı sürgünlərə məruz qalıblar. Eləcə də Məmmədxanlılar. Atamın əmisi Müsavatın Gəncədə nümayəndəsi olub. Neçə dəfə tutulub, qaçaq kimi yaşayıb. Ənvər Məmmədxanlının qardaşı Niyazi müharibədə vuruşub qayıdandan sonra da sovet hökuməti onu Sibirə sürgün edib. Mənim qaynatam Yusif Səfərov da məşhur neftçi alimlərdən, ixtiraçılardan biri olub. İki dəfə sürgün olunub. Yəni, bizim ailəni həmişə nəzarətdə saxlayıblar. Hətta atam nazir olanda da nəzarət altında işləyirdi, "çekist"lərdən birini onun müavini qoymuşdular. Anam haqqında isə Xoren Qriqoryanın təqdimatı olub ki, o da, nənəm də sovet quruluşunun düşmənləridir və sürgün olunmalıdır. Son anda Mircəfər Bağırov müdaxilə edib. Bununla da bizim ailənin taleyi həll olunub. Yəni, zahirən baxanda deyirlər ki, Rəsul Rza Xalq şairi olub, Sosialist Əməyi Qəhrəmanı alıb, nazir olub. Bunlar hamısı olub, amma paralel olaraq bu məşəqqətlər də, çətin günlər də olub.

***– Anar müəllim, Rəfibəylilər barədə kitab var, bəs Məmmədxanlılar barədə araşdırma mövcuddurmu ?***

– Mən yazmışam. Hər dəfə söz verirəm ki, bu il bitirəcəm, amma alınmır. Bu il qəti söz verirəm ki, həmin kitabı bitirəcəm. Adı belədir: "Keçən keçdi, olan oldu". Əsərin fəsillərindən biri də Məmmədxanlılara həsr olunub.

***– Babanız "Difai" partiyasının qurucularından biri olub. Bu partiya erməni terroruna qarşı mübarizə aparıb. Necə düşünürsünüz, indiki dövrdə yenidən belə bir partiyaya və təşkilata ehtiyac varmı?***

– Ehtiyac var...Çox böyük ehtiyac var. Çünki erməni xislətində, onların başbilənlərində terrora bağlılıq böyükdür. Baxın, ordumuz uğurlu əməliyyatlar apardı, torpaqlarımızı azad etdi və edəcək də. Lakin onlar bununla barışmaq istəməyəcəklər. Müxtəlif mənfur terror hərəkətlərinə əl atmaq istəyəcəklər. Doğrudur, belə xain planların qarşısını almaq üçün dövlətimizin təhlükəsizliyinə cavabdeh qurumlar var. Lakin xüsusi anti-terror hərəkatı yaratmaq, müqavimət hərəkatı yaratmaq zəruridir. Təbliğat mərkəzi də yaradılmalıdır. Bunu cəmiyyətin bütün kateqoriyalarından olan insanlar aparmalıdırlar. Əgər belə bir komitə yaradılarsa mən onun sıravi üzvü olmağa həmişə hazıram. Əsasən, gənclərdən ibarət olmaldır. Müxtəlif dilləri bilən, milli-mənəvi dəyərlərə sadiq olan vətənpərvər gənclərdən ibarət olmalıdır. Erməni tarixini, onların məkrli planlarını olduğu kimi, hissə qapılmadan təbliğ etsək, bizə kifayətdir. Onların mənfi imicini üzə çıxarmağa yetərincə ciddi faktlarımız var.

***– Anar müəllim, Qarabağ mövzusundan qələbə ruhlu ssenarilər yazmağın vaxtıdırmı?***

– Bəli, tam zamanıdır. Mənə elə gəlir ki, bu, ilk növbədə, sənədli filmlər olmalıdır. Pənah xandan üzü bəri. "Dağlıq Qarabağ" anlayışı olmayıb. Qarabağ olub, Qarabağ xanlığı olub. Bu "Dağlıq Qarabağ" anlayışı sovet dövründə ortaya çıxarılıb. Bunu dövlət başçısı da müsahibəsində dəqiqliklə ifadə etdi ki, o vaxt sovet dövlətinin qərarında da "Dağlıq Qarabağ Azərbaycanda saxlanılsın" cümləsi öz əksini tapıb. Yəni, Azərbaycana verilməsin, Azərbaycanda saxlanılsın. Bunlar fərqli cümlələrdir. Ermənilərə məhz bu kimi faktları göstərmək lazımdır. Bu faktlarda 1918-ci ildəki soyqırımları da öz əksini tapmalıdır. Qarabağ hadisələrinin xronoji ardıcıllığından bəhs edən məzmun olmalıdır. Onların bu ərazilərə iddiaları öz əksini tapmalıdır. Sonda da indiki müharibə işıqlandırılmalıdır. Onların yanlış yolda olduqları barədə filmlər çəkilməlidir. Görəsən, Ermənistanda bir ağıllı insan tapılacaqmı ki, onlara Azərbaycana qarşı iddiaların saxta və mümkünsüz olduğunu, nəhayət, izah etsin. Türkiyəyə qarşı soyqırımı iddiaları, nifrət iddialarının əsassız olduğunu desinlər. Qardaş Türkiyədə hazırda 200 min erməni yaşayır. Onların qəzetləri çıxır, kilsələri var. Bunu dilə gətirməlidirlər. Azərbaycanın özündə erməni kilsəsinə toxunulmur, əksinə, dövlət tərəfindən qorunur.

***– Özünü erməni ziyalıları, yazıçıları adlandıran kəsimə sözünüz varmı?***

– Zaman-zaman erməni xalqını bu xülyalara yoluxduran erməni ziyalıları, başbilənləri olmuşdur. Yəni sıravı əkinçi, sənətkar erməninin bu torpaqlar, bu iddialar nəyinə lazımdır? Onları bu saxta iddialarla, saxta vətənpəvrərliklə silahlandıran da məhz özünə erməni ziyalısı, erməni yazıçısı deyən kəsimlərdir. Zori Balayan, Sero Xandzadsyan, Silva Kapitukyan, Şiraz, Raffidən başlayaraq, bunların hamısının ilk işi türklərə nifrət olmuşdur. Ona görə də, ilk növbədə, erməni ziyalıları, alimləri öz nifrət dəst-xətlərini dəyişdirməlidirlər. Əgər erməni xalqının gələcəyini, sülhü istəyirlərsə, bunu mütləq etməlidirlər.

***Müsahibəni qələmə aldı:***
***Anar TURAN,***
***"Xalq qəzeti"***